Mehdiyeva Fatimə Azad qızı,
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin doktorantı
E-mail: fatima04.86@mail.ru
https://orcid.org/ 0009-0006-2291-7882
Ünvan: Bakı şəhəri, Səbail rayonu, Xaqani küçəsi 24

UOT 343.8
DOI: https://doi.org/10.30546/2218-9130.008.382.2026.1195

YETKİNLİK YAŞINA ÇATMAYANLARA CƏZALARIN TƏYİN VƏ İCRA OLUNMASINDA MEDİASİYA İNSTİTUTUNUN ROLU: PRESPEKTİVLƏR VƏ XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİ

Açar sözlər: y*etkinlik yaşına çatmayanlar, cəza, cinayət, islah olunma, mediasiya, cinayət qanunvericiliyi, milli qanunvericilik, cinayət prosesi.*

Ключевые слова: *несовершеннолетние, наказание, преступление, исправление, посредничество, уголовное право, национальное законодательство, уголовно-процессуальное право.*

Keywords: *minors, punishment, crime, correction, mediation, criminal law, national legislation, criminal procedure.*

I.Giriş

Məhkəmələrdə mübahisələrin kəskin artması bəzi ölkələrdə bu sistemin təşkilinə yanaşmanı və yenidən kökündən nəzərdən keçirilməsinə məcbur edib. Modernləşmə təkcə bilavasitə prosesləri deyil, həm də iş dinləmələrinin məntiqini dəyişdirib.

Son illər ərzində ölkəmizdə qanunvericiliyin müxtəlif sahələrində köklü dəyişikliklər baş vermişdir. Belə ki, dünyada artıq uzun illərdir mövcud olan mediasiya institutu təcrübəsi milli qanunvericilikdə də öz əksini tapmış və bu islahatlar nəticəsində 29 mart 2019-cu il tarixdə "Mediasiya haqqında" Qanun qəbul edilmişdir. Sözügedən Qanunun əsasən məqsədi mübahisələrin alternativ həlli üsullarından olan mediasiyanın təşkili sahəsində ictimai münasibətləri tənzimləmək və bəzi məsələləri məhkəməyədək həll olunması istiqamətində işlərin aparılmasıdır. Belə ki, Qanunda mülki işlər, kommersiya (xarici elementli mübahisələr də daxil olmaqla), ailə, əmək, habelə inzibati hüquq münasibətlərindən irəli gələn mübahisələr üzrə tətbiqi qeyd olunmuşdur. Eyni zamanda Qanunun 3.2-ci maddəsində ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə məhkəməyə müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak tələbi əks olunmuşdur. Araşdırmalar və təhlillər zamanı sözügedən islahatın nəticəsi məhkəmələrdə işlərin azalmasına şahidlik edir.

Bəzi xarici ölkələrdən fərqli olaraq Azərbaycanda mediatorun cinayət hüququ sahəsində cəlb olunması məsələsi qanunvericilikdə öz əksini tapmamışdır. Digər ölkələrin təcrübəsinin müsbət nəticələrindən yararlanaraq gələcəkdə

həmin məsələnin qanunvericiliyə tətbiqi pozitiv göstəricilərə, xüsusən də yetkinlik yaşına çatmayanların işlərində inanılmaz dəyişikliklərə səbəb olmasına təkan verə bilər. Araşdırmanın əsas məqsədi xarici ölkələrdə məhz yetkinlik yaşına çatmayan şəxslərin işlərində cəzalarının təyin olunması zamanı mediatorun cəlb edilməsi və buna dair proqnozun verilməsi, habelə təhlilin aparılması nəzərdə tutulub.

Nəzərə alınmalıdır ki, ölkə qanunvericiliyində yetkinlik yaşına çatmayanların işlərinə xüsusi yanaşma (Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 335.1-ci maddəsinə əsasən yetkinlik yaşına çatmayan şəxslərin törətdikləri cinayətlər barədə cinayət işlərinə daha təcrübəli hakimlər tərəfindən baxılması; eyni zamanda 435.4.1-ci və 435.4.2-ci maddələrinə müvafiq olaraq cəza tədbiri yalnız törədilmiş cinayətin hallarına və ağırlığına deyil, həmçinin yetkinlik yaşına çatmayan şəxsin vəziyyətinə və tələbatına, habelə cəmiyyətin tələbatına uyğun olması, o cümlədən yetkinlik yaşına çatmayan şəxsin azadlıqdan məhrum edilməsi ilə bağlı olan cəza tədbiri yalnız həmin məsələnin mükəmməl baxılmasından sonra tətbiq edilməli və imkan daxilində aşağı həddə endirilməsi və s.) tətbiq edilir və onların cinayət işlərində mediatorun cəlb olunması ilk növbədə tətbiq olunan dəyişikliklərdən olunmalıdır.

II. Xarici ölkələrin təcrübəsinin təhlili

Müasir dövrdə əksər ölkələrdə mediasiya cəmiyyətin müxtəlif sahələrində geniş tətbiq olunur. Mediasiya institutunun cinayət hüququ sahəsində geniş tətbiq olunması bir sıra xarici ölkələrdə pozitiv nəticəyə səbəb olması aydın şəkildə reallıqda öz əksini tapmışdır.

Cinayət işlərində mediatorun əsas vəzifəsi zərərçəkmişə və təqsirləndirilən şəxsə dəymiş zərərin ödənilməsi üçün qarşılıqlı məqbul bir həll yolu tapmağa kömək edən, barışığı asanlaşdıran və nəticədə cinayət işinə qeyri-bərpaedici əsaslarla xitam verilməsini təmin edən, tərəflərin razılığı ilə hüquqlarını izah edən və tərəf tutmayan qərəzsiz vasitəçi olmaqdır. Cinayət mübahisələri zamanı mediatorun əsas funksiyası aşağıdakılardır:

- Ünsiyyətə yardım, yəni birbaşa ünsiyyət qurmaqda çətinlik çəkən tərəflər arasında dialoq üçün təhlükəsiz və etibarlı bir mühit yaratmaq.
- Məlumat dəstəyçisi rolunu oynamaq, bu isə tərəflərə vasitəçiliyin mahiyyətini, onların hüquq və vəzifələrini və mümkün nəticələrini (məsələn, işin dayandırılması) izah etmək.
- Məxfiliyi təmin etmək - proses zamanı əldə edilən məlumatlarla bağlı ciddi məxfiliyin qorunması.
- Qərəzsizliyi gözləmək, yəni tərəf tutmamaq, mühakimə etməmək və kimin haqlı, kimin haqsız olduğuna qərar verməmək.
- Razılaşmaya dair yardımı etmək, daha dəqiq desək kompensasiya, üzr istəmək və digər təzminat formaları ilə bağlı kompromis tapmağa kömək etmək.
- Lazım olduqda müstəntiqdən (razılıqla) zəruri məlumatları tələb etmək, tərəflərlə məxfi görüşmək və kömək istəmək.

Lakin mediator digər cinayət prosesi iştirakçılarından fərqli olaraq məsələn, hakim kimi, işlər üzrə qərar qəbul etmir və ya hökm çıxarmır, və ya vəkil kimi tərəflərdən heç birinin maraqlarını təmsil etmir. Eyni zamanda razılıq əldə olunana qədər cinayət işini dayandırmaq hüququna malik deyil.

Bildiyimiz kimi, "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 30 iyun tarixli 6 nömrəli Qərarına əsasən məhkəmələr üçün yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətinə cəlb edilməsinin spesifikliyini, cəzaların təyin edilməsi, tibbi-psixoloji xarakterli tədbirlərin görülməsi (məcburi tibbi xarakterli tədbirlər), islah işləri və azadlıqdan məhrum etmə yerlərinə göndərilməsi kimi məsələlərdə vahid yanaşma formalaşdırılıb. Yetkinlik yaşına çatmamış şəxslər barəsində ədalət mühakiməsi ilk növbədə həmin şəxsin mənafelərinə xidmət

etməli və belə şəxs haqqında görülən təsir tədbirləri onun şəxsiyyətinə və qanunazidd əməlin xarakterinə uyğunluq təşkil etməlidir.

Bu kateqoriyalı işlər üzrə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının müdafiəsinə, onların barəsində ədalətli cəzaların təyin edilməsinə, onlar tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısının alınmasına, bu cinayətləri doğuran səbəblərin aradan qaldırılmasına xüsusi diqqət yetirilməlidir [4, b. 1]. Göstərilənləri təhlil etsək, bu işlərə mediatorun cəlb olunması müsbət nəticəyə gətirib çıxara bilər

Tarixə nəzər saldıqda müşahidə etmək olar ki, müxtəlif dövrlərdə hər bir cəmiyyətdə, xüsusən də Şərq ölkələrində "barışıq funksiyasını" həyata keçirən, yəni tərəflərin (cinayətkar və zərərçəkmiş) arasında konstruktiv danışıqlar aparmasını təmin edən, müəyyən nüfuza malik olan insanlara müraciət olunurdu. Əksər hallarda bu ağsaqqallar tərəfindən, onların öz təşəbbüsü ilə və ya tərəflərin xahişi ilə baş tuturdu və nəticədə qan düşmənçiliyinin qarşısı alınmış olurdu. Belə ki, Müsəlman hüquq sistemi cinayət hüququ sahəsində tərəflər arasında barışıq, xüsusən də bədən xəsarəti və qətl hadisələrində, zərərçəkmiş və ya onların qohumlarının bağışlaması yolu ilə mümkündür ki, bu da çox vaxt sərt cəzanın kompensasiya (diya) ilə əvəz olunmasına gətirib çıxarır. Xüsusi qeyd olunmalıdır ki, Müsəlman hüququ uşaqların tərbiyəsi və təliminə cismani cəza verilməsini mümkün hesab edir. Şərait tələb edir ki, uşaqlara qarşı bu tədbir hər şeydən əvvəl tərbiyə xarakteri daşımalıdır [3, s. 214].

Bağışlama və sülhün qorunması ideyasına əsaslanır, lakin qohumlar bağışlamazsa, qərar dövlətə keçir və dövlət fərqli bir cəza tətbiq edə bilər. Barışıq yüngül cinayətlər üçün və şəriət ədalət prinsiplərini əks etdirən günahın etiraf edilməsi və zərərin ödənilməsi yolu ilə mümkündür.

Burada aşağıdakı aspektləri mütləq vurğulamaq lazımdır:

- Qəsdən törədilmiş qətl hadisələrində qurbanın qohumları ölüm cəzasını (qisas) kompensasiya (diya) və ya tam əfvlə əvəz etməklə qatili bağışlaya bilərlər.
- Diya (kompensasiya): qətl üçün sabit məbləğ (məsələn, 100 dəvə), qohumları isə qisas əvəzinə alırlar. Diya məbləği müasir hüquq sistemlərində dəyişə bilər.
- Dövlət: əgər öldürülən şəxsin qohumu yoxdursa, hökmdar qərar verir. Dövlətin qatili bağışlamaq hüququ yoxdur, lakin cəzanı yüngülləşdirə bilər, məsələn, ölüm cəzasını həbs cəzası ilə əvəz etməklə.
- Barışıq şərtləri (şəriətə əsaslanan müasir hüquq sistemlərində):
- İlk dəfə törədilən yüngül cinayət.
- Cinayətkar tərəfindən günahın etirafı.
- Tərəflər arasında razılaşma.
- Zərərin ödənilməsi və ya ödənilməməsi [5, s.102].

Məsliyət (ərəb dilindən tərcümədə «barışıq, ümumi rifah» deməkdir) Şimali Qafqazda geniş yayılmış problemlərin həlli üçün arbitraj və ya vasitəçilik metodudur. Tarixən məsliyət ən çox kəskin münaqişələr - qətllər, qadınların oğurlanması, ərazilərarası və millətlərarası münaqişələr zamanı istifadə olunurdu. Eyni zamanda, məsliyət kompromisdir. Kompromis həlli, bir tərəfin digər tərəfin ehtiyac və maraqlarını güzəştə getməklə öz maraqlarına nail ola biləcəyi bir razılaşmadır. Bu, hörmətli üçüncü tərəfin qarşılıqlı güzəştlər, bir məqsədə çatmaq üçün edilən güzəştlər yolu ilə iştirak etdiyi münaqişənin həllidir, öz istəklərinə baxmayaraq. Nəticə etibarilə, belə bir həll yoluna könüllü riayət etmə nisbəti daha aşağıdır. Lakin "ağsaqqallıq institutu"nu və mediasiya institutunu eyniləşdirmək düz olmazdır. Belə ki, mediator dedikdə peşəkar bacarıqlar, qanunlar və danışıqlar texnikaları haqqında biliklər vasitəsi ilə tərəfləri müəyyən danışıqlara gətirən şəxsdir. Mediator tərəf tutmur və qərar qəbul etmir. Onun məqsədi münaqişədə olanların razılığa gəlməsinə kömək etməkdir. "Ağsaqqal" isə həyat təcrübəsi, yaşı, ailəsinə və ya cəmiyyətə xidməti,

müdrikliyinə əsasən cəmiyyət tərəfindən böyük hörmətə və rəğbətə sahib olan bir şəxsiyyətdir. Demək olar ki, əksər hallarda arbitr kimi çıxış edir, məsləhət verir, ənənəvi əxlaqa müraciət edir və hökm çıxarır. Yəni bu iki institut oxşar olduğu təqdirdə fərqli xüsusiyyətlərə malikdir.

Mediasiya mübahisənin bütün tərəflərinin ehtiyaclarını və maraqlarını qarşılayan bir razılığa gəlmək üçün bir fürsətdir. Mediatorun ideal məqsədi münaqişəni həll etmək və şüurlu şəkildə qarşılıqlı məqbul bir həll yoluna - konsensusa çatmaqdır.

Xüsusi fəlsəfəyə malik olan bir cəmiyyət, o cümlədən xüsusiyyətləri ilə fərqlənən mühüm şərq ölәkəsi olan Çində mediator institutu cinayət sahəsində uzun və çətin yol keçmişdir. Mediator institutunun (mübahisələrin neytral mediator ilə danışıqlar yolu ilə həlli) Çin mədəniyyətində yaxşı qəbul edilmişdir. Çünki, Çin fəlsəfəsi münaqişələrin qarşısının alınmasına və insan münasibətlərinin uyğunlaşdırılmasına üstünlük verir.

Çinin mediasiya sahəsində unikal təcrübəsinə nəzər salsaq, müəyyən etmək olar ki, bu ölkə mediasiya mübahisələrin həlli üçün fundamental və yeganə ölkədir ki, dövlətin ali qanunu olan Konstitusiyasında mediasiya təsbit olunmuş bir üsuldur. Belə ki, mediasiya (ictimai barışıq) proseduru Çin Xalq Respublikası Konstitusiyasının 111-ci maddəsində təsbit edilmişdir [8, m. 111].

Bu maddəyə əsasən, şəhər və kənd yerlərindəki komitələr ictimai asayişin qorunması, mülki mübahisələrin həlli (mediasiya) və ictimai maraqların təşviqi üçün məsuliyyət daşıyırlar.

Ölkədəki bütün mülki və kommersiya işlərinin 30%-ə qədəri vasitəçilik müqavilələri vasitəsilə həll edilir və bu, təsisatları dünyanın ən inkişaf etmiş təsisatlarından birinə çevirir.

Məhkəmələr və inzibati orqanlar şikayətlərə baxarkən işçilərinin yükünü azaltmaq üçün mediasiyanın inkişafında xüsusilə maraqlıdır.

Çində cinayət işlərində mediasiya (cinayət barışığı, ***xingshi hejie*** kimi də tanınır) təqsirləndirilən şəxslə zərərçəkmiş arasında münaqişənin həllinə imkan verən rəsmi hüquqi institutdur. Prosedur kompensasiya, səmimi tövbə və sosial harmoniyanın bərpasına yönəlib.

Könüllülük və bağışlama cinayət işlərində mediasiyanın əsasıdır. Bununla yanaşı, önəmli şərtlər kimi tərəflərin könüllü iradə ifadəsi və zərərçəkmişin tam bağışlanmasıdır. Hüquq-mühafizə orqanlarının əsas rolu ondan ibarətdir ki, polis, prokurorluq və məhkəmə razılaşmanı və kompensasiya ödənişlərini rəsmiləşdirməklə barışığın asanlaşdırıcıları kimi çıxış edə bilərlər. Uğurlu barışıq halında şübhəlini (təqsirləndirilən şəxs) cinayət məsuliyyətindən azad edilmə, cəzanın əhəmiyyətli dərəcədə azaldılması və ya həbs cəzası ilə bağlı olmayan cəza gözləyə bilər [7, p. 12].

1960-cı ildən 1990-cı ilə qədər mübahisələrin həllində əsas üstünlük mediasiyaya verilən üsul idi. 1990-cı ildən 2012-ci ilə qədər isə məhkəmələr tərəflərin imtina etmək hüququnu saxlasalar da, mediasiyaya fəal şəkildə təşviq etmək davam etdirilirdi. Lakin, hər bir məhkəmənin mediasiyadakı uğurunu nümayiş etdirmək istəyi hakimlərdən mediator yolu ilə həll edilən işlərin sayı barədə yaxşı statistika təqdim etmələrinin tələb olunmasına səbəb olurdu. Bu rəqəmlər qəsdən yaradılmalı idi; insanlar mediasiya prosesində fəal və çox vaxt tamamilə könüllü iştirak etmirdilər ki, bu da tərəflərdən birinin hüquqlarının pozulmasına və müqaviləni könüllü şəkildə həyata keçirməkdən imtinaya gətirib çıxarırdı. 2012-ci ildən bəri bu yanaşma yenidən nəzərdən keçirildi və mediatorların sayı azaldı və işləri 40%-dən 22%-ə düşdü. Bundan əlavə, Çində həmçinin başa düşülürdü ki, hakimlərin mediator qismində xidmət etməsi eyni zamanda unikal Çin təcrübəsindən tədricən imtina edilməli idi. Tərəflər hakimə tam etibar edə bilmirdilər, buna görə də məhkəmə və mediator funksiyalarını ayırmaq və mediatorların yalnız barışıq və mübahisələrin həlli prosesi ilə məşğul olacaq qurumların yaradılmasına qərar verildi.

Uzun illər təkcə müsəlman hüququ tətbiq edilən ölkələrdə deyil, bəzi Şərq və Qərb ölkələrində də mediasiya institutu geniş yayılmışdır. Nəticədə daha yüngül cəzaların təyin olunmasına və cəzaların icrası zamanı barışıq faktorunun nəzərə alınması müəyən edilmişdir.

Mediasiya təkcə Şərqdə deyil, eyni zamanda Avropa və Amerikada da geniş tətbiq olunmuşdur. Belə ki, 1990-cı illərin əvvəllərindən Macarıstan qanunvericiliyi ailə məsələləri, səhiyyə ilə bağlı mübahisələr və istehlakçıların hüquqlarının müdafiəsi üzrə mediasiya institutlarını yaratmışdır. 2003-cü ildə ölkədə mülki işlər üzrə mediasiya haqqında qanun qəbul edilmişdir. Mediator ali təhsil diplomuna malik və mediatorlar reyestrinə daxil edilmiş istənilən şəxs ola bilərdi. Uşaq məsələləri ilə bağlı mübahisələrin həllində iştirak edənlər istisna olmaqla, mediatorlar üçün xüsusi ixtisas tələbləri yox idi. 1 yanvar 2007-ci ildən etibarən Avropa Şurasının tövsiyələrinə uyğun olaraq, mediasiya cinayət prosesində zərərçəkmişlə cinayətkar arasındakı münasibətləri potensial olaraq həll etmək üçün də istifadə olunurdu. Mediasiya yetkinlik yaşına çatmayanlar və ya böyüklər tərəfindən törədilən şəxsiyyət əleyhinə cinayətlər, əmlaka ziyan vurma və ya yol hərəkəti qaydalarının pozulması hallarında məhkəmə tərəfindən təyin edilir, bu cinayətlərə görə cəza beş ildən çox olmayan müddətə azadlıqdan məhrum etmə nəzərdə tutulurdu. Cinayət Prosessual Məcəlləsinin tələblərinə uyğun olaraq, mediasiya məhkəmə tərəfindən təqsirləndirilən şəxsin günahını etiraf etdiyi və zərərçəkmişə dəymiş ziyanı ödəməyə hazır olduğu hallarda təyin edilir.

1980-ci illərdən bəri bir sıra Avropa ölkələrində cinayət sahəsində mediasiya layihələri ortaya çıxmışdır. Müxtəlif yanaşmaya malik dövlətlər fərqli bir yanaşma tətbiq etmişdirlər. Məsələn, Almaniyada yüngül cinayətlər üçün alternativ cinayət təqibi formasından istifadə olunur. Prokuror təqsirləndirilən şəxsə elə bir seçim təklif edir ki, əgər təqsirləndirilən şəxs zərərçəkmişə dəymiş ziyanı ödəməyi də əhatə edə biləcək öhdəliklərini yerinə yetirərsə, prokuror cinayət təqibini dayandıracaq. Demək olar ki, bütün inkişaf etməkdə olan ölkələrdə alternativ cinayət təqibi formaları kimi yayındırma və mediasiyadan istifadə məhkəmədən əvvəl icraata xitam verilməsini, bununla da cinayət işlərinin əhəmiyyətli bir hissəsinin aradan qaldırılmasını, insan və maddi resurslara qənaət edilməsini və cinayət qeydi olmayan təqsirləndirilən şəxslərin yenidən inteqrasiyası üçün daha effektiv imkanlar yaratmağı hədəfləyir. Buna görə də, forma və məzmun baxımından fərqli olan alternativ cinayət təqibi mexanizmləri hər yerdə fəal şəkildə tətbiq olunur [11, p. 129-135].

Buna baxmayaraq, bu yaş kateqoriyasından olan şəxslərlə bağlı bir sıra məsələlərin dərindən öyrənilməsini və əhəmiyyətli dərəcədə təkmilləşdirilməsini tələb edən çoxsaylı məsələlər mövcuddur. Yetkinlik yaşına çatmayanların cinayətkarlığının qarşısının alınması (müxtəlif təhsil və profilaktik proqramların həyata keçirilməsi və s.), hüquqi proseslərə alternativlərin tətbiqi (qeyri-rəsmi proseslər), onların reabilitasiyası (istirahət) və cəmiyyətə yenidən inteqrasiyası baxımından hələ çox iş görülməlidir. Lakin bundan da öndə yetkinlik yaşına çatmayanların işlərinə mediatorun cəlb olunmasıdır.

Anlaşma əsaslı mediatorun dəyərini müəyyən edən əsas məqamlardan biri də bu prosedurun real alternativi təmsil etməsidir. Başqa sözlə, anlaşma əsaslı mediasiya münaqişədə olan insanlara mübahisəni həll edəcək qərarlar qəbul etmək üçün, birlikdə işləmək üçün bir yol təqdim edir. Münaqişəyə bu qeyri-ənənəvi yanaşma sadə bir müqəddiməyə əsaslanır: münaqişəni yaradanlar və ona sahib olanlar ən ağıllı həllin nə olduğunu ən yaxşı bilirlər. Lakin onların köməyə ehtiyacı ola bilər və mediatorun işi onlara bunu dialoqda səsləndirməyə kömək etmək, onlara əminlik hissi yaratmaq, düşündüklərini deyə biləcəkləri hissi verməkdir. Onlar vəziyyəti mümkün qədər tam başa düşmələrinə kömək edir və birlikdə qərar verə biləcəkləri şəraiti yaradır.

Cinayət hüququnda mediasiya institutu 1980-ci illərdə İngiltərə, ABŞ və Kanada da yaranmışdır. Bu ölkələrin kriminoloqları cinayət prosesində mediasiyanın mümkünlüyünü müzakirə etmiş və müasir cəmiyyətdə qurbanın cinayət nəticəsində yaranan münaqişənin bir tərəfi olduğunu, bütün səlahiyyətlərini dövlətə həvalə etdiyini, eyni zamanda cinayət prosesindən kənarda qaldığını iddia etmişdir. Nəticə etibarilə, hər bir model unikaldır və fərqli inkişaf perspektivinə malikdir. Buna görə də, yerli şəraitdən və hər bir ştatın məhkəmə yanaşmalarından asılı olaraq bir çox mediasiya variantları mövcuddur. Bu gün Amerika Birləşmiş Ştatları inamla iddia edilə bilən ölkələrdən biridir ki, bu da həm problem həllini, həm də qarşılıqlı məqbul həllər tapmağa yönəlmiş vəkillərin, eləcə də hakimlərin və mediasiya proseslərinin faydalarından xəbərdar olan istehlakçıların mövcudluğu nəzərdə tutulur. Bu həm mediasiya mərkəzlərinə göndərilən mübahisələrin sayında, həm münaqişənin erkən mərhələsində, həm də məhkəmədə mübahisənin məhkəmə çəkişməsi və icrası mərhələlərində müraciətlərin vaxtında və ümumi razılaşma faizində əks olunur.

Əsas diqqəti cəlb edən MDB ölkələrindən biri olan Qazaxıstan Respublikasının mediatorun cinayət işlərində iştirakı təcrübəsidir. Belə ki, bu ölkənin qanunvericiliyinə əsasən mediasiya cinayət-prosessual hüququnda zərərçəkmiş və təqsirləndirilən şəxs arasında münaqişələrin sivil şəkildə həllinə yönəlmiş yeni bir institut kimi qəbul edilir. O, qarşılıqlı faydalı barışığa və korlanmış münasibətlərin bərpasına yönəlmiş neytral vasitəçi olan mediator ilə könüllü, konstruktiv danışıqlara əsaslanır. Mediasiya tərəflər arasında münaqişələrin həlli üçün alternativ, lakin qanuni olaraq tanınan bir vasitə kimi cinayət prosesinə inteqrasiya olunur. Mediasiya az ağır və ağır cinayətlərlə, eləcə də qanunla başqa hal nəzərdə tutulmayıbsa, deliktlər ilə bağlı işlərdə istifadə olunur. Qeyd edilməlidir ki, korrupsiya və dövlət qulluğunun və dövlət idarəçiliyinin maraqlarına qarşı müəyyən cinayətlərlə bağlı işlərdə istifadə edilmir. Qazaxıstan Respublikasının "Mediasiya haqqında" Qanununa əsasən müəyyən xüsusiyyətləri qeyd etmək olar. Belə ki, Mediasiya müqaviləsinin bağlanması prosesi dayandırmır.

- Mediasiyada iştirak günahın etiraf edilməsi demək deyil.
- Əgər yetkinlik yaşına çatmayan şəxs iştirak edirsə, müəllim/psixoloq və ya qanuni nümayəndə tələb olunur.
- Müqaviləni imzalamaqdan imtina etmək proses iştirakçısının vəziyyətini pisləşdirmir.
- Tərəflər imzalanmış müqavilə və ya mediasiyaya xitam verilməsi barədə cinayət prosesini həyata keçirən orqana dərhal məlumat verməyə borcludurlar (26-cı maddədə göstərilən əsasları göstərməklə).

Bu ölkənin təcrübəsinin Azərbaycanda tətbiq olunması daha da məqsədəmüvafiqdir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 59.1.2-ci maddəsinə əsasən zərərçəkmiş şəxslə və ya onun yaxın qohumu olan hüquqi varisi ilə barışıq əldə edilməsi cəzanın yüngülləşdirilməsinin hallarına səbəb olur. Lakin reallıqda buna çatmaq çox çətin olur, xüsusən də cinayətkar yetkinlik yaşına çatmyan şəxs olduqda. Belə ki, bu yaş kateqoriyasından olan şəxslər törətdiyi cinayətləri etiraf etməkdən boyun qaçırırlar, bəzən də qorxudan zərər çəkmiş şəxslərlə görüşməkdən çəkinirlər. Bu da o deməkdir ki, onlar mediator institutunun köməyinə müraciət etməklə məsələnin həllinə kömək etmiş olarlar.

Həmçinin, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 80-1-ci maddəsinə əsasən zərərçəkmiş şəxslə barışmaqla, cinayət nəticəsində vurulmuş ziyanı və ya əldə edilmiş gəliri tamamilə ödəməklə bağlı cəza çəkməkdən azad etmə nəzərdə tutulmuşdur.

Bununla yanaşı, Məcəllənin 89.1-ci maddəsinə əsasən böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət etməyə görə məhkum edilmiş yetkinlik yaşına çatmayan tərbiyəvi xarakterli məcburi tədbirlər tətbiq edilməklə cəzadan azad oluna bilər [1, m. 59, 80-1, 89].

Eyni zamanda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 39.1.9-cu maddəsinə əsasən zərər çəkmiş şəxslə təqsirləndirilən şəxs barışdıqda (cinayət təqibi yalnız xüsusi ittiham qaydasında həyata keçirildikdə) cinayət təqibi başlanıla bilməz, başlanmış cinayət təqibinə isə xitam verilməlidir [2, m. 39].

Fikrimizcə, cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslər üçün zərər çəkmiş şəxslə və ya onun varisi ilə barışıq əldə etmək kifayət qədər çətin məsələdir. Böyüklər tərəfindən psixoloji təzyiq, özünün törətdiyi cinayətin nəticəsi, habelə yaranan digər hallar bu kateoriyadan olan şəxslərə ümumiyyətlə barışıq prosesində hər hansı bir nailiyyətlərə gətirib çıxarmayacaq. Bu zaman maraqlı olmayan 3-cü şəxs, yəni mediatorun köməyinə ehtiyac duyulur.

Yetkinlik yaşına çatmayan cinayətkarların işləri ilə bağlı bu yaş kateqoriyasında olanların psixologiyasından və davranışlarından anlayan və xüsusi biliklərə malik olan mediatorların cəlb olunması əsas önəm daşıyır, belə ki, bu tip şəxslərin cəlb olunması digərlərindən fərqli olaraq qanunvericilikdə öz əksini tapmalıdır. Daha dəqiq desək, bu kateqoriydan olan şəxslərin işlərinə psixoloq-pedaqoq ixtisaslı mütəxəssislərin mediator olması məqsədəmüvafiq olardı. Yetkinlik yaşına çatmayan şəxslərin psixoloji xüsusiyyətlərini nəzərə alaraq xüsusi biliklərə malik olan şəxslərin onlarla söhbət aparması, barışıq prosesinə cəlb olunması, habelə zərər çəkmiş şəxs və ya onun yaxın qohumu ilə daha rahat və sərbəst daxil olmasına köməklik göstərilməsinə töhfə verə bilər.

Yetkinlik yaşına çatmayan cinayətkar hələ fizioloji və psixoloji yetkinliyə çatmamış bir şəxsdir. Onların tərbiyəsi və sosiallaşması natamamdır və bu da onları mənfi sosial mühitin təsirinə tez düşməsinə gətirib çıxarır. Bundan əlavə, yetkinlik yaşına çatmayan cinayətkarlar adətən tənqidi düşüncə tərzini zəif inkişaf etdirir, mürəkkəb qərarları qəbul etmək təcrübəsi yoxdur və başqaları ilə münasibətlərində açıq-aşkar emosionallıq və səthilik nümayiş etdirirlər.

Yetkinlik yaşına çatmayan cinayətkarların əksəriyyəti artıq antisosial davranış vərdişləri, meylləri və davamlı stereotipləri inkişaf etdirmiş insanlardır. Onlardan yalnız bir neçəsi təsadüfən cinayət törədir. Eyni zamanda onlar bəzi xüsusiyyətlərlə xarakterizə olunur:

- sosial davranış normalarına davamlı etinasızlıq (məsələn, kobud sözlər işlətmək, sərxoş görünmək, insanları narahat etmək, ictimai əmlaka zərər vermək və s.);
- mənfi vərdişlərə və ənənələrə meyl, alkoqol, narkotik və qumara sevgi; avaraçılıq, evdən, məktəbdən və digər təhsil müəssisələrindən sistemli şəkildə qaçmaq; erkən cinsi münasibətlər və əxlaqsızlıq;
- hətta dinc vəziyyətlərdə belə sistematik şəkildə qəzəb, intiqamçılıq, kobudluq və aqressiv davranış təzahürləri;
- ailədə münaqişə vəziyyətləri və daimi mübahisələr yaratmaq, valideynləri və digər ailə üzvlərini qorxutmaq;
- akademik nailiyyətləri və intizamlı davranışları ilə seçilən digər kiçik qruplara qarşı düşmənçilik.

Eyni zamanda bildiyimiz kimi, cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslər daha yüksək faiz ehtimalı ilə valideyn himayəsindən məhrum olmuş, sosial və psixoloji baxımdan probemli ailələrdən olurlar. Belə hallarda onların psixoloji durumunda da bir sıra problemlər də ortaya çıxa bilər. Bu isə barışıq prosesinə maneələr yarada bilər. Meditor-pedaqoq (psixoloq) həmin məsələlərin həllində dəstək ola bilər.

Bu kateqoriyadan olan cinayətkrların davranış xüsusiyyətlərini nəzərə alaraq bu şəxslərin müəyyən kompromislərə gəlməsi, müstəqil şəkildə barışığa can atması inanılmazdır. Buna görə də, yetkinlik yaşına çatmyan şəxslər ilə ünsiyyət üzrə müəyyən biliklərə malik olan psixoloq-pedaqoqların təcrübəsindən yararlanmaq məqsədəmüvafiqdir.

Qanunvericiliyin təhlili zamanı bəlli olur ki, yetkinlik yaşına çatmayanlar iştirakçı kimi prosesə daxil olarkən pedaqoq və ya psixoloqun cəlb olunması əsas şərt kimi müəyyən olunur. Bu faktoru nəzərə alaraq mediatorun da həmin tələblərə cavab verərək cəlb olunması mütləqdir.

Bununla da, barışıq sazişi ilə həllini tapan cinayət işlərin sayının artması yetkinlik yaşına çatmayanların cəzaların təyin olmasında və icrasında pozitiv dəyişikliyə əsas qoya bilər. Yetkinlik yaşına çatmayanların işlərinə mediatorun cəlb olunması bəzi hallarda cinayət məsuliyyətindən və ya cəzadan azad olunmasına, digər hallarda isə daha yüngül cəzanın təyin olunmasına səbəb ola bilər. Nəticə etibarı ilə faktiki olaraq onların sayının azalmasına gətirib çıxara bilər.

Hazırda bu sahə üzrə ölkəmizdə bir sıra ilkin addımlar atılmışdır. Belə ki, Mediasiya Şurası və Ədliyyə Nazirliyinin Probasiya Xidməti Azərbaycanda bərpaedici ədliyyənin inkişafı və mübahisələrin sülh yolu ilə həlli istiqamətində əməkdaşlıq edir. Bu iki qurumun əlaqəsi cinayət və hüquqpozma törətmiş şəxslərin cəmiyyətə adaptasiyası və zərərçəkmişlərlə barışması prosesini əhatə edir. Fəaliyyət əsasasən birgə təlimlərin təşkilinə fokuslanıb. Probasiya sistemində bərpaedici ədliyyənin tətbiqi və sosial adaptasiyanın gücləndirilməsi məqsədilə mediatorlar üçün təlimlər təşkil olunur. Burada əsas məqsəd barışıq və sosiallaşma prosesinə peşəkar mediatorların cəlb edilməsidir.

Yekunda qeyd olunmalıdır ki, bu tədbirlər ilə yanaşı, mediatorun cinayət prosesinə cəlb olunması, xüsusən də yetkinlik yaşına çatmayanların işlərinə dair mübahisələrdə iştirakı qanunvericilikdə əks olunması və buna məcburiliyik faktoru kimi yanaşması vacib önəm daşıyır. Bununla da bir sıra məsələlər həll edilmiş hesab oluna bilər. Belə ki,

- məhkəmələrin yükünün azalması;
- ehtiyatsızlıqdan, böyük ictimai təhlükə törətməyən cinayətlər, habelə bəzi hallarda az ağır cinayət törətmiş yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətdən və cəzadan azad olunması;
- yetkinlik yaşına çatmayanların cinayət məsuliyyətindən və cəzadan azad olunması nəticəsində onların cinayət mühitinə daxil edilməməsinə səbəb olması və gələcəkdə uzun reabilitasiya və cəmiyyətə inteqrasiya prosesindən azad olunması;
- ümumi rejimli tərbiyə müəssisələrdə cəza çəkən yetkinlik yaşına çatmayan şəxslərin sayının azalması və s.

Avropa İttifaqında vasitəçilik institutunun fərqli xüsusiyyətlərindən biri onun cinayət hüququ sahəsində tətbiqidir. Bu sahədə mediasiya zorakılıqsız barışıq üçün bir vasitə kimi istifadə olunur. Mediasiyanın qeyri-rəsmi şəraitdə, zərərçəkmiş və cinayətkarın tərəfdaş olduğu və əks rollar təyin etdiyi subyektlər olduğu bir şəraitdə aparılması gözlənilir [9, b. 4-9].

Bu işdə vasitəçinin vəzifəsi Avropa İttifaqında ədalət sisteminin böhranını həll etmək və hüquq sistemini daha az əhəmiyyətli (daha az əhəmiyyətli) işlərə baxmaqdan azad etməkdir. Sanksiyaların və şərti azadlıq tədbirlərinin tətbiqi insan hüquqlarına təhlükə yaratmamalıdır.

Qeyd etmək lazımdır ki, cinayət prosesində vasitəçilik Belarus Respublikasında da tətbiq olunur, lakin yalnız yetkinlik yaşına çatmayanlarla bağlı işlərdə. Yetkinlik yaşına çatmayanlarla bağlı işlərdə vasitəçiliyi qeyd etmək lazımdır ki, əvvəllər bu növ vasitəçilik cinayət hüququ sahəsinə daxil edilmişdi; lakin Uşaq Hüquqları Konvensiyasının qəbulundan sonra bu növ vasitəçiliyin özünəməxsus xüsusiyyətlərə malik olduğu göstərildi. Digər tərəfdən, hazırda yetkinlik yaşına çatmayanların iştirak etdiyi vasitəçilik proseslərində təkamül müşahidə olunur. Yetkinlik yaşına çatmayanların məsuliyyətə cəlb edilə biləcəyi və bununla da zərərçəkmiş tərəfin prosesə cəlb edilə biləcəyi şəkildə qaydaların formalaşdırılmasına ehtiyac vardır [6, s. 32].

Beləliklə, Avropa İttifaqının hüquq sistemində mediasiya institutunun qısa icmalı təqdim edilmişdir. Tamlıq naminə, onun milli səviyyədə əldə

edə biləcəyi spesifik xüsusiyyətləri vurğulamaq istərdim, çünki xatırlatmaq üçün Direktiv yalnız Aİ üzv dövlətləri tərəfindən mediasiya prosesini tənzimləmək üçün əsas kimi istifadə edilə bilər; o, Aİ üzv dövlətlərinin milli qanunvericiliyində əlavə dəqiqləşdirməyə məruz qalır [10, b. 1].

Nəticə

Araşdırmalar və təhlillər göstərir ki, gələcəkdə mediasiya bütün dünyada alternativ həll yolu kimi öz yerini tapmışdır. Cəmiyyət daha da çox məhkəməyədək mübaisələrin həllində maraqlıdır. Bu həm vaxt, həm də maddi baxımdan daha tez və sərfəli çıxış yoludur.

Mediasiya insitutunun Azərbaycanda daha geniş yayılmasına ölkəmizdə kifayət qədər əsaslar və gözləntilər var. Belə ki, 2019-cu ildən etibarən bu institut ölkəmizdə mülki, əmək və ailə məsələlərində müsbət nəticə vermişdir. Millətimizin şərq psixologiyasına məxsus olaraq, müxtəlif mübahisələrdə kompromisə və danışıqlara üstünlük verməsini, əksər məsələləri məhkəməyəqədər mərhələdə həll olunmasına pozitiv reaksiya verməsini nəzərə alaraq mediasiyanın cinayət sahəsində də müsbət nailiyyətlər əldə edəcəyini güman etmək olar.

Cinayət hüququ sahəsində xüsusi özəlliyi və fərqliliyi ilə seçilən yetkinlik yaşına çatmayanlar kateqoriyasından olan şəxslərin işlərinə mediatorun cəlb olunması da gözləntilərdən biri ola bilər. Milli qanunvericiliyin sözügedən şəxslərə dair həssas yanaşmasıda da təkan verə bilər.

Belə ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən yetkinlik yaşına çatmayan şəxslərin işlərinə daha diqqətlə və həssas yanaşma əsas priotetlərdən biridir. Bu isə sözügedən kateqoriyadan olan şəxslərin digərlərindən fərqləndirilməsinə imkan verir.

Digər əsas məqam ondan ibarətdir ki, bu şəxslər yaş xüsusiyyətlərinə görə başqalarına bənzəmir. Yetkinlik yaşına çatmayanlar psixososioloji baxımdan daha dəyişkən, kövrək və marginaldırlar. Təsadüf deyil ki, cinayət hüququ və kriminologiyada, hətta hüquq psixologiyasında bu kateqoriyadan şəxslərin psixoloji durumu, özünəməxsus xüsusiyyətləri fərqli prizmadan araşdırılıb. Bu baxımdan adıçəkilən şəxslərin məsələlərinə mediatorun cəlb olunmasına daha ehtiyac duyulur. Hətta xüsusilə qeyd olunmalıdır ki, mediatorların bu yaş kateqoriyasının psixologiyasından məlumatlı olan pedaqoq-psixoloqlardan seçilməsi məqsədəuyğundur. Psixoloq-pedaqoqlar danışıqların aparılması zamanı yetkinlik yaşına çatmayanların xüsusiyyətlərini nəzərə alaraq prosesi həyata keçirəcəklər. Nəticədə məsələnin həllini tapmasında daha effektiv və qısa müddətə çatmaq mümkün olacaq.

Təbii ki, digər ölkələrdəki kimi, mediatorların bütün cinayət işlərinə cəlb olunması mümkünsüzdür. Lakin ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər törətdiyi zaman sözügedən şəxslərə müraciət olunması effektiv vasitələrdən biri kimi qeyd edilə bilər. Bu halda cinayətin ağırlığı və əhəmiyyəti nəzərə alınaraq, xüsusən də yetkinlik yaşına çatmayanların işlərində pozitiv nəticəyə səbəb ola bilər. Həmçinin yetkinlik yaşına çatmayanlar tərəfindən böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərin törədildiyi zaman barışığa gəldikdə azadlıqdan məhrumetmə ilə bağlı olmayan alternativ cəzaların təyin olunması təqdirdə onlar gələcəkdə reabilitasiya və cəmiyyətə reinteqrasiya prosesindən də azaddırlar. Adıçəkilən şəxslər daha qısa müddətdə normal həyat tərzinə qayıdıb öz fəaliyyətlərini davam edə biləcəklər. Bu isə yetkinlik yaşına çatmayanlar üçün çox önəmli bir məsələdir, xüsusən də onların təhsilində və iş həyatında problemlərin yaradan səbəblərdən birinə çevrilməyəcək.

Göstərilənləri ümumiləşdirərək qənaətə gəlmək olar ki, mediatorun cinayət mübahisələrinə, xüsusən də yetkinlik yaşına çatmayanlarda, cəlb olunması pozitiv dəyişiklərə səbəb olacaq və onların bəzi hallarda məsuliyyətdən, cəzadan azad olunmasına və ya daha yüngül cəzanın təyin olunmasına gətirəcək.

İstifadə edilmiş ədəbiyyat syahısı:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://www.e-qanun.az/framework/46947
2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi // Azərbaycan Respublikasının 14 iyul 2000-ci il tarixli 907-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://www.e-qanun.az/framework/46950
3. Nazim Cəfərli, Rəsul Rüstəmov. Müsəlman hüququnun əsasları. Dərslik. Bakı. "Elm və təhsil", 2011 – 272 səh.
4. "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 30 iyun tarixli 6 nömrəli Qərarı: [Elektron resurs] /URL: https://e-qanun.az/framework/17786
5. Беккин Р. Мусульманское право как отражение специфики политико-правовой культуры мусульманского мира. Восток и политика: Политические системы, политические культуры, политические процессы. Под ред. А. Д. Воскресенского. – М., - 2015. – 102 с.
6. Бельская И. А. Теория и практика медиации (посредничества) в экономической сфере: учеб.- метод. пособие / под ред. У. Хелльманна [и др.]. - Минск: Изд. Центр БГУ. – 2015. – 98 с.
7. Asian Journal of Criminology. // December 2013: [Elektron resurs]/URL: _Criminal_Mediation_in_Mainland_China_A_Leap_from_Judicial_Endeavor_to_Legal_Norm https://www.researchgate.net/publication/257681644.
8. Constitution of the People's Republic of China: [Elektron resurs]/URL: https://rcit.su/inform-cn-const.html.
9. Directive 2008/52/EC of the European Parliament and of the Council of 21 May 2008 on certain aspects of mediation in civil and commercial matters: [Elektron resurs] /URL: https://eurlex.europa.eu/legalcontent/EN/TXT/?uri=uriserv%3AOJ.L_.2008.136.01.0003.01.ENG.
10. European Code of Conduct for Mediators: [Elektron resurs] /URL:https://www.kearns.co.uk/wp-content/uploads/2017/06/European-code-of-conduct-for-mediators.
11. Töszs Edit. Mediation and the Mediation Procedure in Hungry for Adult Offenders // European Best Practices of Restorative Justice in Criminal Procedure /Ed. By Melinda Gyokos and Krisztina Lanyi. Budapest: Ministry of Justice and Law Enforcement, Republic of Hungary, 2010. 200 p.

Мехдиева Фатима Азад гызы,
докторант Центра судебной экспертизы Министерства юстиции
Азербайджанской Республики

РОЛЬ ИНСТИТУТА МЕДИАЦИИ В НАЗНАЧЕНИИ И ПРИМЕНЕНИИ НАКАЗАНИЙ К НЕСОВЕРШЕННОЛЕТНИМ: ПЕРСПЕКТИВЫ И ОПЫТ ЗАРУБЕЖНЫХ СТРАН

РЕЗЮМЕ

Интерес к институту медиации в мире растет с каждым днем, главная причина этого – досудебное разрешение споров является основой современная тенденции. В то же время большинство стран, отходя от «принципа состязательности» в вопросе разрешения споров, предпочитают садиться за стол переговоров, заключать мировое соглашение и проходят к добровольному соглашению между сторонами. Это объясняется также снижением нагрузки на суды и разрешением некоторых проблем на начальном этапе. С принятием Закона «О медиации» 29 марта 2019 года в нашей стране начался новый этап в разрешении споров в судах, однако указанный Закон не предусматривал участия медиатора в уголовных делах. Основная задача медиатора – установление комфортного общения между сторонами, помощь в понимании их интересов и содействие в разрешении конфликта.

Поскольку уголовная сфера является деликатной, в некоторых случаях здесь также необходимо привлечение медиатора. В частности, необходимо применение института медиации в уголовных делах с участием несовершеннолетних. Таким образом, учитывая возраст и постоянно меняющееся психологическое состояние лиц этой категории при совершении ими определенных преступлений (как по неосторожности, а также не

представляющих большой общественной опасности, так и менее тяжких), возможно достижение примирения с помощью медиатора. В результате, если примирение достигнуто, они могут быть освобождены от наказания и ответственности, и для этих лиц может быть назначено более мягкое наказание. Естественно, для достижения этого целесообразно привлекать в качестве медиаторов педагогов и психологов, работающих с ними и обладающих специальными знаниями. Так, в некоторых уголовных делах, таких как семейные и трудовые споры, и особенно при разрешении уголовных дел, совершенных несовершеннолетними, проведение обязательной предварительной медиации является одним из необходимых факторов.

Применение института медиации в уголовном праве уже широко практикуется в ряде зарубежных стран. Таким образом, в статье рассматривается зарубежное законодательство, а также возможность отражения этого вопроса в национальном законодательстве, включая то, какие позитивные нововведения оно может принести, а также анализ и перспективы данного вопроса.

Mehdiyeva Fatima Azad,
Doctoral student, Forensic Center of
the Ministry of Justice of the Republic of Azerbaijan

THE ROLE OF THE MEDIATION INSTITUTE IN THE ASSIGNMENT AND EXECUTION OF PUNISHMENTS TO JUVENILES: PERSPECTIVES AND EXPERIENCE OF FOREIGN COUNTRIES

SUMMARY

Interest in the institution of mediation is increasing day by day in the world, the main reason for this is the modern preference for resolving disputes before going to court. At the same time, most countries prefer to move away from the "dispute principle" and sit down at the negotiating table, conclude a settlement agreement and sign a voluntary agreement between both parties. This is because it also leads to a reduction in the burden on the courts and the resolution of some problems at the outset. With the adoption of the Law "On Mediation" on March 29, 2019, a new stage in the resolution of disputes before going to court was opened in our country, but the said Law did not provide for the involvement of a mediator in criminal cases. The main task of the mediator is to facilitate communication between the parties, help them understand their interests, and assist in resolving the conflict.

Since the criminal field is a sensitive field, there is a need to involve a mediator in some cases here too. In particular, the application of the institution of mediation in criminal cases involving minors is necessary. Thus, taking into account the age, sensitivity, and constantly changing psychological state of persons from this category, when they commit certain crimes (negligently and not posing a great public danger, as well as less serious), it is possible to achieve reconciliation through the mediator. As a result, if reconciliation is achieved, they can be released from punishment and responsibility, and a lighter punishment can be determined for these persons. Naturally, in order to achieve this, it is advisable to involve educators and psychologists who work with them and have special knowledge as mediators. Thus, in some criminal cases, such as family and labor disputes, and especially in resolving criminal cases committed by minors, holding a mandatory preliminary mediation session is one of the necessary issues.

The application of the institution of mediation in the field of crime is already widely practiced in a number of foreign countries. Thus, the article examines foreign legislation, as well as the possibility of this issue being reflected in national legislation, including what positive innovations it can bring, as well as analyzes and perspectives.

Redaksiyaya daxilolma tarixi: 13.08. 2026
Təkrar işlənməyə göndərilmə tarixi: 17.08. 2026
Çapa qəbul olunma tarixi: 22.08.2026